*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 18 iyul tarixli 7/27-2 saylı Qərarı ilə təsdiq edilmiş, 2013-cü il 18 iyun tarixli 6/58 saylı, 2024-cü il 27 iyun tarixli 14/50 saylı və 2024-cü il 2 iyul 16/59 saylı qərarları ilə dəyişiklik edilmişdir.*

# Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) namizədin, siyasi partiyaların, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin statusu haqqında

# T Ə L İ M A T

Azərbaycan Respublikasında keçirilən seçkilərdə (referendumda) (bundan sonra – seçkilərdə) namizədin (qeydə alınmış namizədin) (bundan sonra – namizəd) səlahiyyətli nümayəndəsinin, siyasi partiyaların, siyasi partiyalar bloklarının, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin statusu Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 52-ci və 64-cü maddələrinə və bu Təlimata uyğun olaraq müəyyənləşdirilir.

## 1. Səlahiyyətli nümayəndələrin təyin edilməsi qaydası və fəaliyyətinin əsasları

1.1. Seçki Məcəlləsi ilə nəzərdə tutulan seçki hərəkətlərinin həyata keçirilməsi məqsədilə namizəd və referendum üzrə təşviqat qrupu yaradılmasının təşəbbüsçüləri səlahiyyətli nümayəndələr təyin edə bilərlər. Namizəd irəli sürmüş siyasi partiyalar və siyasi partiyaların blokları səlahiyyətli nümayəndələrini təyin etməlidirlər. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələri, həmçinin siyasi partiyanın, siyasi partiyalar blokunun və referendum üzrə təşviqat qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri öz səlahiyyətləri daxilində namizədin iradəsi ilə, siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların qurultayı, konfransı, habelə onların rəhbər orqanının iclasının və ya siyasi partiyaların nümayəndələrinin birgə iclasının, referendum üzrə təşviqat qrupunun iclasının qərarı ilə təyin edilirlər.

1.2. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin sayı qanunvericiliyə uyğun olaraq onların öz mülahizəsi əsasında müəyyən edilir.

1.3. Azərbaycan Respublikasının Mərkəzi Seçki (Referendum) Komissiyasında (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qeydiyyatdan keçən referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin sayı

25-dən, dairə seçki (referendum) komissiyasında (bundan sonra – dairə seçki komissiyası) qeydiyyatdan keçən referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinin sayı isə 5-dən artıq ola bilməz.

1.4. Siyasi partiyanın, siyasi partiyalar blokunun və referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndəsi öz funksiyalarını səlahiyyətini, soyadını, adını, atasının adını, doğum tarixini, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini və verilmə tarixini və ya etibarlılıq müddətini, yaşayış yerinin ünvanını, iş və ya xidmət yerini, vəzifəsini (bu olmadıqda – fəaliyyət növünü) əks etdirən, maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə isə həm də maliyyə sənədlərinin və həmin sənədlər üçün möhürlərin nümunələrini əks etdirən, siyasi partiyanın, bloka daxil olan siyasi partiyaların qurultaylarının, yaxud konfranslarının və ya siyasi partiya nümayəndələrinin birgə iclasının qərarı əsasında, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələri, habelə maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri isə qrup tərəfindən onlara verilmiş vəkalətnamə əsasında və müəyyən olunmuş səlahiyyətlər həddində həyata keçirirlər.

1.5. Siyasi partiyanın səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada, siyasi partiyalar bloklarının səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada və ya notariat qaydasında, namizədin səlahiyyətli nümayəndəsinə, referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə isə yalnız notariat qaydasında rəsmiləşdirilən vəkalətnamə verilməlidir (Təlimata 3, 3 ”a”, 3 ”b”, 3 ”c”, 3 ”ç”, 3 ”d”, 3 ”e”, 3 ”ə” və 3 ”f” saylı əlavələr).

1.6. Siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin siyahıları Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi qaydada və formada tərtib edilərək Mərkəzi Seçki Komissiyasına təqdim edilir. Siyasi partiyanın, siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələri istisna olmaqla, digər səlahiyyətli nümayəndələrin siyahısı dairə seçki komissiyalarına da təqdim edilir. Referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahıları həmin qrupu qeydiyyata alan müvafiq seçki komissiyalarına (Mərkəzi Seçki Komissiyasına və ya dairə seçki komissiyasına) təqdim edilir (Təlimata 2 və 2 “a” saylı əlavələr).

1.7. Təqdim edilmiş müvafiq siyahıya hər bir şəxsin səlahiyyətli nümayəndə olmağa razılığı barədə yazılı məktubu (Təlimata 1 və 1 “a” saylı əlavələr), habelə arxasında həmin şəxsin şəxsiyyətini müəyyənləşdirməyə imkan verən qeyd aparılmaqla, 3×4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə olunmalıdır. Namizədin səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun və referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinə və maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinə Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi nümunəyə uyğun hazırlanmış lövhəcik verilir

(Təlimata 4, 4 "a", 4 "b", 4 "c", 4 "ç", 4 "d", 4 "e", 4 "ə", 4 "f", 4 "g" və 4 "ğ" saylı əlavələr). Səsvermə günü səsvermə otağında olarkən səlahiyyətli nümayəndənin həmin lövhəciyi olmalıdır[1].

---

[1] *Seçkilərin digər iştirakçıları kimi səlahiyyətli nümayəndələr də Seçki Məcəlləsinin 2.6-cı maddəsində göstərilən aşağıdakı şərtlərə riayət etməlidirlər:*

- *mətbuat azadlığına hörmət bəsləmək;*
- *öz peşə fəaliyyəti ilə məşğul olan media subyektləri nümayəndələrinin işinə mane olmamaq, namizədlərin, partiyaların (siyasi partiyalar bloklarının) seçki (referendum) kampaniyalarına müdaxilə etməmək və onu pozmamaq;*
- *seçkiqabağı (referendumqabağı) təşviqat materiallarının yayılmasına mane olmamaq;*
- *seçkiqabağı (referendumqabağı) təşviqat plakatlarını və digər bu cür təşviqat materiallarını məhv etməmək və korlamamaq;*
- *seçkiqabağı (referendumqabağı) kütləvi tədbirlərin keçirilməsinə mane olmamaq;*
- *seçkilərin (referendumun) azad, sərbəst, dinc və mütəşəkkil keçirilməsi üçün seçki (referendum) orqanları ilə və onların vəzifəli şəxsləri ilə əməkdaşlıq etmək;*
- *seçicilərin öz iradəsini azad və sərbəst bildirməsinə maneçilik törətməmək;*
- *səlahiyyətli şəxslərə və müşahidəçilərə hörmət bəsləmək və onlarla əməkdaşlıq etmək;*
- *səsvermənin gizliliyini saxlamaq və saxlanılmasına kömək göstərmək;*
- *seçiciləri qeyri-qanuni hərəkətlər yolu ilə öz tərəfinə çəkməmək;*
- *seçki (referendum) komissiyalarının fəaliyyətlərinə əsassız müdaxilə etməmək, səslərin verilməsi və ya səslərin hesablanması prosesini pozmamaq;*
- *seçkilərin (referendumun) qanuni təsdiqlənmiş nəticələrinə hörmət etmək, seçkilərlə (referendumla) bağlı hər bir şikayəti səlahiyyətli orqana təqdim etmək və həmin orqanın bu şikayətlə bağlı qərarına riayət etmək;*
- *hədə-qorxu və böhtan xarakterli və ya zorakılığa çağıran çıxışlar etməmək və bu cür materiallar yaymamaq;*
- *seçicilərə mükafat təklif etməmək, onları cəza ilə hədələməmək;*
- *dövlət resurslarından, bələdiyyə və digər ictimai resurslardan bu Məcəllə ilə nəzərdə tutulmamış hallarda istifadə etməmək;*
- *təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri səs verməyə, səsvermədən çəkinməyə sövq etməmək;*
- *təzyiq göstərmək ilə və ya bəxşiş təklif etmək yolu və ya digər qanunazidd üsullarla seçiciləri referendum üzrə təşviqat qruplarında iştirak etməyə və ya iştirak etməməyə, öz namizədliklərini irəli sürməyə və ya irəli sürməməyə, namizədliklərini geri götürməyə və ya geri götürməməyə, seçkiqabağı (referendumqabağı) təşviqatda iştirak etməyə və ya iştirak etməməyə məcbur etməmək;*
- *heç bir vəzifəli şəxsin referenduma çıxarılan məsələnin, namizədin dəstəklənməsinə və ya dəstəklənməməsinə yönəldilən köməyindən və ya fəaliyyətindən istifadə etməmək.*

## 2. Səlahiyyətli nümayəndənin hüquqları və onlara qadağan edilən hərəkətlər

**2.1. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin[2] aşağıdakı hüquqları vardır:**

2.1.1. namizədin qeydə alınması üçün seçki sənədlərini müvafiq seçki komissiyasına təqdim etmək;

2.1.2. imza vərəqələrinin müvafiq seçki komissiyasına verilməsi barədə yazılı arayış almaq və imzaların yoxlanılmasında iştirak etmək;

2.1.3. imza vərəqələrinin yoxlanmasının nəticələri haqqında protokolun surətini almaq;

2.1.4. namizədin qeydə alınması barədə qərarın surətini həmin qərarın qəbul edildiyi gündən etibarən 1 gün müddətində almaq;

2.1.5. namizədin qeydə alınması üçün təqdim olunan seçki sənədlərində yol verilmiş və aradan qaldırılması mümkün olan səhvlər barəsində 24 saat müddətində xəbərdar edilmək və həmin səhvləri düzəltmək;

2.1.6. dairə seçki komissiyalarından hüdudları, ünvanları və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını əldə etmək;

2.1.7. qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu üçün efir vaxtının ayrılması və seçkiqabağı təşviqat materiallarının dərc edilməsi tarixinin müəyyənləşdirilməsi məqsədilə keçirilən püşkatmada iştirak etmək;

2.1.8. seçkiqabağı təşviqat materiallarının ödənişli əsaslarla dərc edilməsi ilə bağlı dövri nəşrlərin redaksiyalarına müraciət etmək;

2.1.9. seçkiqabağı təşviqat materiallarının yerləşdirilməsi üçün ayrılmış yerlərin siyahısını müvafiq seçki komissiyasından almaq;

2.1.10. müşahidəçi qismində seçkilərin gedişini izləmək[3];

2.1.11. seçici siyahıları ilə tanış olmaq;

2.1.12. səsvermə günü istədiyi vaxt müvafiq seçki məntəqəsinin səsvermə otağında olmaq;

2.1.13. seçicilərin barmaqlarının mürəkkəblənməsini və ultrabənövşəyi lampalarla yoxlanılmasını müşahidə etmək;

2.1.14. seçki (səsvermə) bülletenlərinin (bundan sonra – seçki bülleteni) seçicilərə verilməsini müşahidə etmək;

---

[2] *Siyasi partiyalar, siyasi partiyaların bloku və referendum üzrə təşviqat qrupu tərəfindən maliyyə hesabatının verilməsi vəzifəsi onların maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin üzərinə qoyulur. Maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə fəaliyyəti dövründə 3 dəfə – imza vərəqələrini müvafiq komissiyaya təqdim edərkən, səsvermə gününə ən geci 10 gün qalmış və seçkinin nəticələrinin rəsmi dərc edildiyi gündən ən geci 10 gün sonra hesabat verməlidir.*

[3] *Səsvermə günü səsvermə otağında olan və seçki hərəkətlərinin həyata keçirilməsini müşahidə edən şəxslərin siyahısı məntəqə seçki komissiyasının katibi tərəfindən aparılır.*

2.1.15. səsvermə yerindən kənarda seçicilərin səs verməsini müşahidə etmək;

2.1.16. seçicilərin sayını hesablamaq, seçki bülletenlərinin, ləğv edilmiş seçki bülletenlərinin sayılmasını müşahidə etmək;

2.1.17. müşahidənin nəticələrinin seçki komissiyasının protokoluna əlavə olunmasını tələb etmək[4];

2.1.18. seçki komissiyasının qanuni fəaliyyətinə mane olmadan, müşahidə aparmağı təmin edən şəraitdə və maneəsiz müşahidə aparmağa imkan verən məsafədən seçicilərin səslərinin hesablanmasına, seçicilərin səsləri hesablanarkən doldurulmuş və ya doldurulmamış hər bir seçki bülleteninə səsin etibarlılığını yoxlamaq məqsədilə baxmaq, səsvermənin nəticələri və seçkilərin yekunları (ümumi yekunları) haqqında seçki komissiyasının protokolu və digər seçki sənədləri ilə tanış olmaq;

2.1.19. səslərin paralel hesablanmasında iştirak etmək;

2.1.20. səsvermənin təşkili ilə əlaqədar təklif və iradlarla məntəqə seçki komissiyasının sədrinə, o olmadıqda isə onu əvəz edən şəxsə müraciət etmək;

2.1.21. seçki komissiyalarının sənədlərinin, o cümlədən səsvermənin nəticələri və seçkilərin yekunları haqqında protokolların, səsvermə günü seçki komissiyasının işə başladığı və seçki qutularının kilidləndiyi andan seçki komissiyaları tərəfindən səsvermənin nəticələri haqqında protokolların qəbul edilməsinədək seçki komissiyaları tərəfindən tərtib edilmiş və ya onlara əlavə olunmuş qoşma sənədlərin təsdiqlənmiş surətlərinin bir nüsxəsini haqq ödənilmədən çıxarmaq və ya almaq, əlavə nüsxələri Mərkəzi Seçki Komissiyası tərəfindən müəyyən edilən haqq ödənilməklə çıxarmaq və ya almaq[5];

2.1.22. səsvermədə iştirak edən şəxslərin siyahısı ilə tanış olmaq;

2.1.23. müvafiq seçki komissiyalarında seçicilərin səslərinin təkrar hesablanmasını müşahidə etmək;

2.1.24. seçki sənədlərinin dairə seçki komissiyasına və Mərkəzi Seçki Komissiyasına göndərilməsini müşahidə etmək;

2.1.25. müvafiq seçki komissiyasının qərarından, onun vəzifəli şəxslərinin hərəkət və ya hərəkətsizliyindən məhkəməyə müraciət etmək;

2.1.26. qanunla qadağan edilməyən digər hərəkətlər (hərəkətsizlik) etmək[6].

---

[4] *Müşahidənin yekunlarına dair tərtib edilən rəylər müvafiq komissiyaların sədrlərinə təqdim edildikdə, həmin rəy səsvermənin nəticələri və ya seçkilərin ümumi yekunları haqqında protokola əlavə edilməlidir.*

[5] *Müşahidə edənin tələbi ilə seçki komissiyası adıçəkilən sənədlərin surətlərini təsdiq etməlidir.*

[6] *Səlahiyyətli nümayəndə müşahidəni aparan zaman müşahidənin aparılması prinsiplərinə (bir namizədin və ya siyasi partiyanın mənafeləri naminə seçki prosesinə təsir göstərilməməsi, müşahidə edilən hərəkətlərə aid olan bütün halların və faktların nəzərə alınması, müşahidənin açıq aparılması, müşahidənin yekunlarının faktlara əsaslanması) hökmən əməl etməlidir. Aşkar etdiyi faktları müəyyən olunmuş qaydada (buna dair müvafiq akt tərtib etməklə) rəsmiləşdirməli, imkan daxilində həmin faktların rəsmiləşdirilməsinə maraqlı şəxslərin diqqətini cəlb etməlidir. Seçki (referendum) prosesində aşkarlığın təmin edilməsi, ehtimal edilən pozuntuların qarşısının alınması və baş vermiş pozuntuların nəticələrinin aradan qaldırılmasının təmin edilməsi məqsədilə həmin halların müvafiq komissiyanın nəzərinə çatdırılmasının məqsədəmüvafiqliyi daim diqqətdə saxlanılmalıdır.*

**2.2. Namizədin, siyasi partiyanın, siyasi partiyalar bloklarının və referendum üzrə təşviqat qruplarının səlahiyyətli nümayəndələrinə aşağıdakı hərəkətləri etmək qadağandır:**

2.2.1. seçkiyə təsir etmək məqsədilə seçki kampaniyasının gedişində xeyriyyə fəaliyyəti ilə məşğul olmaq;

2.2.2. seçkilərə təsir etmək məqsədilə digər fiziki və hüquqi şəxslərə maddi və maliyyə yardımı etmək, seçicilərə və təşkilatlara maliyyə yardımı, maddi yardım və ya xidmət göstərmək təklifi ilə müraciət etmək;

2.2.3. səlahiyyətli nümayəndə televiziya və radio proqramları və media subyektləri redaksiyalarında işləyən jurnalist və yaradıcı işçi olduğu halda, seçkilərin gedişini media vasitəsilə işıqlandırmaq;

2.2.4. dövlət və bələdiyyə orqanlarında müəyyən vəzifə tutan səlahiyyətli nümayəndələrin seçkilərin gedişi zamanı öz vəzifə və xidməti mövqelərindən istifadə etmək;

2.2.5. seçicilərə seçki bülletenləri vermək;

2.2.6. seçiciyə necə səs verəcəyi və necə səs verdiyi haqqında sual vermək;

2.2.7. seçicinin xahişi ilə onun əvəzinə seçki bülleteni alınması haqqında imza etmək;

2.2.8. seçicinin xahişi ilə seçki bülletenini doldurmaq;

2.2.9. seçki komissiyalarının həlledici səs hüquqlu üzvləri ilə birlikdə seçki bülletenlərinin hesablanmasında birbaşa iştirak etmək;

2.2.10. seçki komissiyalarının işinə maneə törədən hərəkətlər etmək;

2.2.11. seçicilər arasında təşviqat aparmaq;

2.2.12. bu və ya digər namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun dəstəklənməsinə yönəldilən və dəstəklənməsi kimi qiymətləndirilə bilən hərəkətlər və çağırışlar etmək;

2.2.13. müvafiq seçki komissiyasının qərarlarının qəbul olunmasına müdaxilə etmək;

2.2.14. seçicilərin barmaqlarını mürəkkəblə işarələmək və ya ultrabənövşəyi lampa ilə seçicilərin barmaqlarının işarələnib-işarələnmədiyini yoxlamaq;

2.2.15. seçicilərin suallarına cavab vermək (öz statusu ilə bağlı suallar istisna olmaqla);

2.2.16. qanunla qadağan edilən digər hərəkətlər (hərəkətsizlik) etmək.

## 3. Səlahiyyətli nümayəndənin (maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin) səlahiyyət müddəti və səlahiyyətlərinə xitam verilməsi qaydası

3.1. Namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun və referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin səlahiyyət müddəti onların təyin edildiyi vaxtdan başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edildiyi gündən gec olmayaraq başa çatır.

3.2. Zəruri olan imzaların toplanmasının təşkil edilməsi, habelə referendum

üzrə təşviqat qrupu adından Seçki Məcəlləsi ilə müəyyən edilmiş hərəkətlərin həyata keçirilməsi məqsədilə təyin edilmiş referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndəsinin səlahiyyətləri müvafiq olaraq həmin qrupun qərarı ilə referendum üzrə təşviqat qrupunun qeydə alınmasından sonra da saxlanıla bilər.

3.3. Namizəd, siyasi partiya, siyasi partiyaların bloku və referendum üzrə təşviqat qrupu müvafiq seçki komissiyasını xəbərdar etməklə, səlahiyyətli nümayəndələrini istənilən vaxt geri çağıra və onların əvəzinə başqalarını təyin edə bilər. Belə xəbərdarlıq olduqda, müvafiq seçki komissiyası geri çağırılan səlahiyyətli nümayəndənin lövhəciyini etibarsız sayır.

3.4. Səlahiyyətli nümayəndə namizədi, habelə siyasi partiyanı, siyasi partiyaların blokunu və referendum üzrə təşviqat qrupunu xəbərdar etməklə, ona verilmiş lövhəciyi istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq, səlahiyyətlərindən imtina edə bilər.

3.5. Səlahiyyətli nümayəndənin səlahiyyətlərinə qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda və qaydada da xitam verilə bilər.

____________________________________________

*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən

____________________________________________

*(seçkilərin (referendumun) adı)*

seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndənin

## R A Z I L I Q   M Ə K T U B U

Mən, ________________________________________________________

*(soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikasında keçirilən ___________________________________

*(seçkilərin (referendumun) adı)*

(namizədi) qeydə alınmış ________________________________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun,referendum üzrə təşviqat qrupunun adı)*

tərəfindən səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, “____” ________________ _____ ildə anadan olmuşam,

*(doğum tarixi)*

____________________________________________________________________

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti,*

____________________________________________________________________

*yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

____________________________________________________________________

*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

__________________ __________________________________

*(imza)* *(səlahiyyətli nümayəndənin inisialı və soyadı)*

“_____” ________________ 20___ il.

*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*

*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*

*Təlimata 1 "a" saylı əlavə*

______________________________
*(siyasi partiyalar, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

Azərbaycan Respublikasında keçirilən

______________________________
*(seçkilərin (referendumun) adı)*

seçkilər(in)də (referendumda) siyasi partiya, siyasi partiyalar bloku, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndənin

## R A Z I L I Q   M Ə K T U B U

Mən, ______________________________
*(soyadı, adı, atasının adı)*

Azərbaycan Respublikasında keçirilən ______________________________
*(seçkilərin (referendumun) adı)*

(namizədi) qeydə alınmış ______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun,referendum üzrə təşviqat qrupunun adı)*

tərəfindən maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə təyin edilməyimə razılıq verirəm.

Bildirirəm ki, "____" ______________ _____ ildə anadan olmuşam,
*(doğum tarixi)*

______________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti,*

______________________________
*yaşayış yerinin ünvanı, əsas iş və ya xidmət yeri,*

______________________________
*tutduğu vəzifəsi (bu olmadıqda – fəaliyyət növü), telefon nömrəsi)*

______________ ______________________
*(imza)* *(inisialı və soyadı)*

"_____" _______________ 20___ il.
*(ərizənin verilmə tarixi)*

**Qeyd:** *1. Ərizəyə 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil əlavə edilməlidir.*
*2. Siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrinin siyahılarına əlavə edilərək, Mərkəzi Seçki Komissiyasına göndərilən razılıq ərizələrinə fotoşəkil əlavə olunmur.*

*Təlimata 2 saylı əlavə*

______________________________________________
*(seçki komissiyasının adı)*

____________________________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

## siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş səlahiyyətli nümayəndələrin

## S İ Y A H I S I

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğulduğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ________________ ______________________________
*(imza)* *(inisialı və soyadı)*

*Təlimata 2 ”a” saylı əlavə*

____________________________________
*(seçki komissiyasının adı)*

____________________________________________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupunun adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun, referendum üzrə təşviqat qrupu tərəfindən təyin edilmiş maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndələrin**

**S İ Y A H I S I**

| Sıra sayı | Soyadı, adı, atasının adı | Doğulduğu il (18 yaşlı şəxsin həm də doğul-duğu ay və gün) | Şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti | Yaşayış yerinin ünvanı | Əsas iş və ya xidmət yeri, tutduğu vəzifə, (bu olmadıqda – fəaliyyət növü) | Telefon №-si |
|---|---|---|---|---|---|---|
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |
| | | | | | | |

**Səlahiyyətli şəxs** ______________ ________________________________
*(imza)* *(inisialı və soyadı)*

*Təlimata 3 saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

_______________________________________________________________

*(referendum üzrə təşviqat qrupunun adı)*

"_____" ______________ 20 ___ il tarixli iclasının _____ saylı qərarına əsasən ___________________________________________________________ yaşayan,

*(yaşayış yerinin ünvanı)*

_________________________________________________________ malik olan

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

____________________________________________________________________

*(soyadı, adı, atasının adı)*

"_____" ________________20___ il tarixə təyin edilmiş referendumda həmin referendum üzrə təşviqat qrupunun səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________ ________________________________________

*(imza)* *(referendum üzrə təşviqat qrupunun nümayəndəsinin soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 “a” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

______________________________________________________________

*(referendum üzrə təşviqat qrupunun adı)*

“____” _____________ 20___ il tarixli iclasının ____ saylı qərarına əsasən ____________________________________________________________ yaşayan,

*(yaşayış yerinin ünvanı)*

____________________________________________________________ malik olan

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

____________________________________________________________________

*(soyadı, adı, atasının adı)*

“____” _______________ 20___ il tarixə təyin edilmiş referendumda həmin referendum üzrə təşviqat qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________ ________________________________________

*(imza)* *(referendum üzrə təşviqat qrupunun nümayəndəsinin soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*

*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 "b" saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

Mən, ________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

____________________________________ namizədi (qeydə alınmış namizəd)
*(təyin edilmiş seçkilərin adı)*

__________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

___________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

__________________________________________________________ yaşayan,
*(səlahiyyətli nümayəndənin yaşayış yerinin ünvanı)*

__________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

___________________________________________________________________
*(iş yeri, vəzifəsi və ya xidmət yeri (bunlar olmadıqda – fəaliyyət növü))*

___________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

"_____" ____________ 20____ il tarixə təyin edilmiş ______________________
*(seçkinin adı)*

seçkilərində mənim səlahiyyətli nümayəndəm qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirməyi həvalə edirəm.

______________ ____________________________________________
*(imza)* *(namizədin (qeydə alınmış namizədin) soyadı, adı, atasının adı))*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 "c" saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

__________________________________________________
*(siyasi partiyanın adı)*

"______" _____________ 20 ____ il tarixli qurultayının (konfransının, rəhbər orqanının iclasının) _____ saylı qərarına əsasən ______________________

__________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

__________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

__________________________________________________________
*(soyadı, adı, atasının adı)*

"____" __________ 20___ il tarixə təyin edilmiş ______________ seçkilərdə
*(seçkilərin adı)*
həmin siyasi partiyanın səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________ ________________________________________________
*(imza)* *(siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 “ç” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

______________________________________________________________

*(siyasi partiyanın adı)*

“______” ______________ 20___ il tarixli qurultayının (konfransının, rəhbər orqanının iclasının) ____ saylı qərarına əsasən _______________________

_____________________________________________________ yaşayan,

*(yaşayış yerinin ünvanı)*

_____________________________________________________ malik olan

*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

______________________________________________________________

*(soyadı, adı, atasının adı)*

“____” __________ 20___ il tarixə təyin edilmiş ______________ seçkilərdə

*(seçkilərin adı)*

həmin siyasi partiyanın maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

______________ ______________________________________________________

*(imza)* *(siyasi partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*

*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 “d” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

__________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

iclasının “____” _______________ 20___ il tarixli ____ saylı qərarına əsasən

_______________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

_______________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____” __________ 20___ il tarixə təyin edilmiş ________________________
*(seçkilərin adı)*

seçkilərində həmin siyasi partiyalar blokunun adından səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyalar blokuna daxil olan partiyaların sədrləri:

1. ____________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
2. ____________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*
3. ____________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

.
.
.

____________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 “e” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

___________________________ siyasi partiyalar bloku nümayəndələrinin
*(siyasi partiyalar blokunun adı)*

İclasının “____” ______________ 20___ il tarixli ____ saylı qərarına əsasən

__________________________________________________________ yaşayan,
*(yaşayış yerinin ünvanı)*

_________________________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

________________________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____” ____________ 20___ il tarixə təyin edilmiş _________________________
*(seçkilərin adı)*

seçkilərində həmin siyasi partiyalar blokunun adından maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndə qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

Siyasi partiyalar blokuna daxil olan partiyaların sədrləri:

1.__________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

2. __________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

3. __________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

.
.
.

__________________________________________________________
*(partiya sədrinin (və ya nizamnamə ilə buna vəkil edilmiş digər şəxsin) soyadı, adı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 3 “ə” saylı əlavə*

# V Ə K A L Ə T N A M Ə

_______________________________________ siyasi partiyalar blokunun
*(siyasi partiyalar blokunun adı)*

nümayəndələrinin “____” __________20___ il tarixli iclasının ____ saylı

qərarına əsasən ____________________________________________
*(yaşayış yerinin ünvanı)*

yaşayan, ___________________________________________________
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*

malik olan _________________________________________________
*(soyadı, adı, atasının adı)*

“____” __________ 20___ il tarixə təyin edilmiş _______________________
*(seçkilərin adı)*

seçkilər(in)də həmin siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

_____________ ______________________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin adı, soyadı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

# V Ə K A L Ə T N A M Ə

________________________________________ siyasi partiyalar blokunun
*(siyasi partiyalar blokunun adı)*
nümayəndələrinin “____” __________20___ il tarixli iclasının ____ saylı qərarına əsasən ______________________________________________
*(yaşayış yerinin ünvanı)*
yaşayan, ____________________________________________ malik olan
*(şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası,nömrəsi və verilmə tarixi və ya etibarlılıq müddəti)*
______________________________________________________________
*(soyadı, adı, atasının adı)*
“___” _________ 20__ il tarixə təyin edilmiş _______________________
*(seçkilərin adı)*
seçkilərində həmin siyasi partiyalar blokunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi qismində qanunvericiliklə nəzərdə tutulmuş hüquq və vəzifələri yerinə yetirmək həvalə edilmişdir.

____________ ______________________________
*(imza)* *(vəkalətnamənin notariat qaydasında rəsmiləşdirilməsi həvalə edilmiş nümayəndənin adı, soyadı, atasının adı)*

**Qeyd:** *1. Vəkalətnamə notariat qaydasında təsdiq olunmalıdır.*
*2. Səlahiyyətli nümayəndənin səlahiyyət dairəsini həmin səlahiyyəti verən şəxs müəyyən edir. Belə olduqda, vəkalətnamədə bu hal öz əksini tapmalıdır.*

*Təlimata 4 saylı əlavə*

| | AZƏRBAYCAN RESPUBLİKASINDA REFERENDUM | REFERENDUM İLİ |
|---|---|---|

_______________________________

*(soyadı, adı, atasının adı)*

**referendum üzrə təşviqat qrupunun təyinatı əsasında**

*M.Y.* _______________________________

*(referendum üzrə təşviqat qrupunun adı)*

| **SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ** | №___ |
|---|---|

*Təlimata 4 "a" saylı əlavə*

| | AZƏRBAYCAN RESPUBLİKASINDA REFERENDUM | REFERENDUM İLİ |
|---|---|---|

_______________________________

*(soyadı, adı, atasının adı)*

**referendum üzrə təşviqat qrupunun təyinatı əsasında**

*M.Y.* _______________________________

*(referendum üzrə təşviqat qrupunun adı)*

| **MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ** | №___ |
|---|---|

*Təlimata 4 “b” saylı əlavə*

AZƏRBAYCAN RESPUBLİKASININ
MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR

SEÇKİ İLİ

______________________________
*(soyadı, adı, atasının adı)*

**namizədin təyinatı əsasında**

*M.Y.*

______________________________
*(namizədin soyadı, adı, atasının adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№____

*Təlimata 4 “c” saylı əlavə*

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SEÇKİLƏRİ

SEÇKİ İLİ

______________________________
*(soyadı, adı, atasının adı)*

**namizədin təyinatı əsasında**

*M.Y.*

______________________________
*(namizədin soyadı, adı, atasının adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№____

*Təlimata 4 "ç" saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASINDA BƏLƏDİYYƏ SEÇKİLƏRİ**

**SEÇKİ İLİ**

_______________________________

*(soyadı, adı, atasının adı)*

**namizədin təyinatı əsasında**

*M.Y.* _______________________________

*(namizədin soyadı, adı, atasının adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№___

*Təlimata 4 "d" saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR**

**SEÇKİ İLİ**

_______________________________

*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.* _______________________________

*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№___

*Təlimata 4 "e" saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİNƏ SEÇKİLƏR**

**SEÇKİ İLİ**

_______________________________
*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.*

_______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№____

*Təlimata 4 "ə" saylı əlavə*

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SEÇKİLƏRİ**

**SEÇKİ İLİ**

_______________________________
*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.*

_______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№____

*Təlimata 4 "f" saylı əlavə*

AZƏRBAYCAN RESPUBLİKASI
PREZİDENTİNİN SEÇKİLƏRİ

SEÇKİ
İLİ

______________________________
*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.*

______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№___

*Təlimata 4 "g" saylı əlavə*

AZƏRBAYCAN RESPUBLİKASINDA
BƏLƏDİYYƏ SEÇKİLƏRİ

SEÇKİ
İLİ

______________________________
*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.*

______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№___

*Təlimata 4 "ğ" saylı əlavə*

AZƏRBAYCAN RESPUBLİKASINDA
BƏLƏDİYYƏ SEÇKİLƏRİ

SEÇKİ
İLİ

_______________________________
*(soyadı, adı, atasının adı)*

**siyasi partiyanın, siyasi partiyalar blokunun təyinatı əsasında**

*M.Y.*

_______________________________
*(siyasi partiyanın, siyasi partiyalar blokunun adı)*

**MALİYYƏ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ NÜMAYƏNDƏ**

№____